Tarix və onun problemləri, №3 2009

**ELŞAD MIRBƏŞIR OĞLU**
*siyasi elmlər namizədi,*
*BDU-nun "Politologiya və sosiologiya" kafedrasının müəllimi*

# "DƏF ETMƏ" SIYASI MÜNAQIŞƏLƏRIN IDARƏ OLUNMASININ MÜHÜM VASITƏSI KIMI

Siyasi münaqişələrin həlli problemini tədqiq edərkən münaqişələrin idarə olunması məsələsinə toxunmaq böyük əhəmiyyət kəsb edir. Münaqişələrə nəzarətdən fərqli olaraq münaqişələrin idarə olunması münaqişə edən tərəflərin rəqabət xarakterli qarşılıqlı fəaliyyətlərinin müxtəlif komponentlərinə məqsədyönümlü şəkildə təsir göstərməyi nəzərdə tutur. Bu baxımdan münaqişələrə nəzarət etmək üçün daha çox güc və səy tələb olunur. Siyasi münaqişələrin idarə olunması dedikdə əsasən münaqişənin subyektlərinə təsir etmək imkanları nəzərdə tutulur. Siyasi münaqişələrə aid olan nəzəriyyələrin təhlili göstərir ki, "münaqişələrin idarə olunması" anlayışı siyasi elmdə XX əsrin 60-cı illərindən başlayaraq istifadə olunmağa başlanmışdır. Siyasi münaqişələrin idarə olunmasına dair ilkin nəzəriyyələr də məhz 60-70-ci illərdə formalaşmışdır. Keçən əsrin 60-cı illərin sonlarında amerikalı potlitoloqlar L.Blumfeld və A.Leys inkişaf etməkdə olan dünyada baş vermiş münaqişələrə nəzarət edilməsinə və onların idarə olunmasına dair öz universal nəzəriyyələrini işləyib hazırlamışlar.(4,s.41) Bu nəzəriyyələrin əsasını lokal münaqişələrin baş verəcəyi barədə xəbərdarlıq və onların idarə olunması strategiyası təşkil edirdi. L.Blumfeldin və A.Leysin fikrincə lokal münaqişələrin qarşısının alınması və onların idarə olunması aşağıdakı hallarda mümkündür:

Münaqişələrin idarə olunması münaqişələrin birbaşa iştirakçıları tərəfindən və ya xarici qüvvələr tərəfindən həyata keçirilə bilər. Yəni münaqişələrin idarə olunması təkcə üçüncü tərəfin fəaliyyəti çərçivəsinə daxil deyildir. Bu prosesdə, həmçinin münaqişənin bir və ya bir neçə iştirakçısı da əhəmiyyətli rol oynayırlar. Münaqişələrin idarə olumasında üçüncü tərəfin iştirakı zamanı münaqişənin həll olunması subyektlər qarşısında duran birinci dərəcəli vəzifə xarakteri daşımır. Sadəcə olaraq bu, subyektlərin qarşılarına qoyduqları bir neçə vəzifədən biri rolunda çıxış edə bilər. Deyilənləri ümumiləşdirərək münaqişələri idarə etməyin aşağıdakı modellərini göstərmək olar: (2, s.5)

Bu modellərdən birincisi bilərəkdən konkret münaqişənin əsasında duran ziddiyyətlərin kəskinləşməsindən ibarətdir. Münaqişə edən tərəflərdən biri, münaqişəni özünün fəaliyyət göstərməsi üçün sərfəli olan bir vəziyyətə gətirə bilər. Məsələn, bu tərəflərdən biri qarşı tərəflə əməkdaşlıq etmək üçün elə şərtlər irəli sürürlər ki, hansı ki, bu şərtlər rəqibin qüvvəsini tamamilə tükəndirmək əzmində olurlar. Rəqib tərəf onun üçün əlverişsiz şərtləri qəbul etmədikdə isə onu əməkdaşlıqdan boyun qaçırmaqda suçlandırırlar. Bu cür hallar adətən dövlətdaxili siyasi münasibətlərdə özünü biruzə verir.

Siyasi münaqişələrin idarə olunmasının ikinci modelinin mahiyyəti ondan ibarətdir ki, tərəflər arasındakı ziddiyyətli vəziyyət müəyyən məqsədlər üçün olduğu kimi saxlanılmağa çalışır. Yəni münaqişəli vəziyyətin aradan qaldırılmasını ləngidirlər, bəzən isə tamam qarşısını alırlar.

Siyasi münaqişələrin idarə olunmasının üçüncü modeli münaqişənin özünün açıq mərhələsinə keçməsinin və siyasi ziddiyyətlərin kəskinləşməsinin qarşısının alınmasına yönəlmişdir.

Siyasi münaqişələrin idarə olunmasının dördüncü modeli münaqişə edən tərəflər arasındakı qarşıdurmanı zəiflətməyi, münaqişənin neqativ nəticələrini neytrallaşdırmağı nəzərdə tutur.

Siyasi münaqişələrin idarə olunmasının beşinci modeli münaqişənin həlli adlanır. Bu zaman münaqişənin baş verməsinin əsas səbəbləri aradan qaldırılır və artıq tənzimlənmiş münaqişənin yenidən baş qaldırmasının qarşısı alınır.

Münaqişələrin dəf edilməsi dedikdə subyektlərin elə fəaliyyəti nəzərdə tutulur ki, bu fəaliyyət, cəmiyyətdə münaqişələrə aparan ziddiyyətlərin qarşısının alınmasına, yaxud da artıq baş vermiş münaqişələrin dağıdıcı nəticələrinin aradan qaldırılmasına istiqamətlənmiş olsun. Münaqişələrin dəf edilməsinə yönəlmiş fəaliyyət münaqişələrin inkişafının ilkin mərhələsində həyata keçirilməlidir. Burada da əsas məqsəd münaqişənin inkişafının açıq fazasının qarşısının alınmasından ibarət olur. Münaqişələrin dəf olunması prosesi də öz növbəsində hissə-hissə və tam şəkildə reallaşdırılır. Münaqişələrin hissə-hissə dəf edilməsi zamanı münaqişəyə səbəb olan bir və ya bir neçə amillər aradan qaldırılır. Bunun nəticəsində münaqişənin neqativ nəticələri bir az yumşaldılmış olur. Lakin münaqişə vəziyyəti qalmaqda davam edir və o, öz inkişafının növbəti, yəni, açıq mərhələsinə keçə bilər. Lakin buna baxmayaraq, münaqişənin qismən də olsa dəf edilməsi özü-özlüyündə olduqca müsbət bir haldır. Belə ki, münaqişələrin sonrakı mərhələlərində ziddiyyət bir o qədər də kəskin xarakterli olmayacaq və onların tənzimlənməsi nisbətən asan olcaq.

Münaqişələrin tam dəf edilməsi isə münaqişələrin baş verməsini şərtləndirən bütün elementlərin və şəraitin neytrallaşdırılmasını nəzərdə tutur. Münaqişə tam şəkildə dəf edildikdə onun subyektləri arasında toqquşan maraqlar artıq əhəmiyyətlərini itirirlər və onlar sərbəst əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər. Bəzi tədqiqatçılar siyasi münaqişələrin dəf olunmasını da yalnız üçüncü tərəfin səmərəli fəaliyyəti kimi qiymətləndirirlər. Münaqişələrin dəf edilməsi probleminin təhlili göstərir ki, cəmiyyətdə qarşılıqlı fəaliyyət üçün zəruri şərtlərin mövcud olması, cəmiyyət üzvləri arasında yarana biləcək ziddiyyətlərin qarşısının vaxtında alınması baxımından mühüm əhəmiyyət kəsb edir.(3, s.170)

Daxili siyasi və xarici siyasi müstəvidə baş verən münaqişələrin dəf olunması prinsipləri fərqli cəhətlərə malikdir. Belə ki, daxili siyasi münaqişələrin dəf edilməsi nisbətən asan mümkün olur. Bu ondan irəli gəlir ki, daxili siyasi müstəvidə meydana çıxan ziddiyyətlər daha tez nəzərə çarpır. Bundan başqa daxili siyasi münaqişələrin dəf edilməsinin xüsusi mexanizmi mövcuddur. Daxili siyasi münaqişənin dəf edilməsi mexanizmi bir sıra metodlarla ifadə olunur. Bu metodların mahiyyəti ondan ibarətdir ki, cəmiyyətdə baş verə biləcək kəskin qütbləşmənin qarşısı alınır və bununla da gələcək münaqişəli vəziyyət dəf olunmuş olur. Daxili siyasi münaqişələrin dəf edilməsi istiqamətində ən çox tətbiq edilən metolardan aşağıdakıları qeyd etmək olar:

**birincisi,** "sosial manevr etmə" metodudur. Bu zaman ictimai sərvətin müəyyən hissəsinin yenidən bölünməsi prosesi həyata keçirilir. Bu metodun tətbiq edilməsində əsas məqsəd, cəmiyyətdə müxtəlif səbəblər üzündən baş vermiş böhranlar zamanı əhalinin sosial vəziyyətini nisbətən yaxşılaşdırılmasından ibarətdir. Bu cür böhranlı vəziyyətlər təbii fəlakətlər, inflyasiya və s. səbəblərdən baş verə bilər.

Sosial manevr etmə metodunun tətbiq edilməsi formaları cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olur. Əvvəllər bu metod, müəyyən bir fəlakətlə üzləşmiş əhaliyə birdəfəlik maddi yardımların göstərməsi şəklində həyata keçirilirdi. Belə tədbirlər isə adətən qeyri-dövlət institutları tərəfindən təşkil edilirdi. XIX əsrdən başlayaraq "yoxsulluq haqqında dövlət qanunları"nın tətbiq edilməsi ilə sosial manevr etmə daimi xarakter alır. Müasir inkişaf etmiş ölkələrdə sosial siyasət adlanan bütöv sistemlər formalaşmışdır. Göründüyü kimi, sosial manevr etmə kütlənin dövlətə qarşı olan narazılıqlarını neytrallaşdırmaq üçün həyata keçirilir.

**ikincisi,** "siyasi manevr etmə" metodudur. Siyasi manevr etmə metodunun mahiyyəti ondan ibarətdir ki, münaqişə vəziyyətində olan tərəflərin maraqlarına cavab verə biləcək qısa və uzun müddətli siyasi kompromiss əldə olunur. Bu siyasi kompromiss isə sonradan tərəflər arasında konsensusun əldə olunmasını şərtləndirməklə pozitiv bir funksiya yerinə yetirmiş olur. Belə şərtlər daxilində də tərəflər arasında siyasi qütbləşmə müşahidə olunsa belə, o, müəyyən çərçivəni aşmır. Siyasi manevretmə formalarından biri də mövcud arzuolunmaz siyasi fiqurun dəyişdirilməsidir. Cəmiyyət qarşısında üzərinə müəyyən öhdəliklər götürən siyasi elita, həmin öhdəlikləri yerinə yetirə bilmədiyi təqdirdə ictimai etibarını qorumaq üçün belə bir addım atmalı olur. Yəni öz legitimliyini itirmiş siyasi qüvvələr hakimiyyətdən uzaqlaşaraq özlərinə yaxın olan digər üzvlərin hakimiyyətə gəlməsini təmin edirlər. Siyasi rejim formaca dəyişsə də məzmunca dəyişməz qalır. Hakim elita tərəfindən atılmış bu cür addım cəmiyyətdəki gərginliyi nisbətən neytrallaşdırmaq imkanına malikdir. Lakin, qeyd etmək lazımdır ki, cəmiyyətdəki siyasi gərginliyi zəifl ətmək üçün tətbiq edilən bu metod eyni zamanda daha kəskin ziddiyyətlərin meydana çıxmasını da şərtləndirə bilər.(1)

**üçüncüsü,** "siyasi manipulyasiya" metodudur. Geniş mənada siyasi manipulyasiya dedikdə, siyasi hakimiyyətin, yaranacaq münaqişəli vəziyyətlərin qarşısının alınması istiqamətində həyata keçirdiyi komples fəaliyyətlər başa düşülür. Siyasi manipulyasiya, həmçinin ictimai şüura kütləvi informasiya vasitələrininköməyilə məqsədyönümlü təsir kimi də qəbul edilir. Cəmiyyətin siyasi hakimiyyətə dəstək verməsi və ya ona qarşı çıxması kütləvi informasiya vasitələrinin fəaliyyətindən çox asılıdır. Bu baxımdan cəmiyyətdə mövcud olan informasiya vasitələrinin əksəriyyəti daim müxtəlif qüvvələrin nəzarətində olurlar. Onların böyük bir hissəsinin fəaliyyəti ancaq siyasi elitanın maraqları ilə uzlaşdırılır. (5,s.28)

**dördüncüsü,** "düşmən obrazının yaradılmsı" metodudur. Bu metodun mahiyyəti ondan ibarətdir ki, cəmiyyətdə aktual problemlərin öz həllərini tapmamasında digər siyasi qüvvələr günahlandırılır. Bu da ictimaiyyətin fikrini əsas məsələlərdən yayındırmaq məqsədini güdür. Siyasi münaqişələri dəf etməyin bu metodu da siyasi gərginliyi azaltmaq funksiyası ilə yanaşı, münaqişəli vəziyyətin kəskinləşməsinə də səbəb ola bilər. Bu metodun tətbiq edilməsi çox millətli ölkələr üçün xüsusi ilə təhlükəlidir. Çünki, polietnik cəmiyyətlərdə hakim statusa malik millət, yaranmış böhranlı vəziyyətlərdə adətən digər etnosları günahlandırır. Dövlətin ictimai-siyasi və iqtisadi həyatanda baş vermiş ziddiyyətlərdə hər hansı bir millətin günahlandırılması isə mövcud gərginliyin daha da dərinləşməsinə səbəb olur.

**beşincisi,** "güc vasitəsi ilə təzyiq etmə" metodudur. Bu zaman mövcud sistemə qarşı cəmiyyətin neqativ münasibətinin müxtəlif zorakı yollarla aradan qaldırılmasına cəhd edilir. Bu istiqamətdə həm də, müasir hüquq normalarına istinad etməklə dolayı təzyiq vasitələri də tətbiq oluna bilər. Məsələn, fövqəladə halın elan olunması, repressiya, müxalifət partiyalarının fəaliyyətinin qadağan olunması və s. Bu metodun tətbiq edilməsi, vətəndaşlarının siyasi aktivliyi zəif olan ölkələrdə daha səmərəli olur.

Beynəlxalq siyasi münaqişələrin dəf olunmasının da özünəməxsus prinsipləri mövcuddur. Bu prinsiplər içərisində gözlənilməsi daha vacib olanı bütün dövlətlərin və xalqların dinc yanaşı yaşamasının təmin edilməsidir. Dövlətlər arasında qarşılıqlı münasibətlərin bu prinsipi XX əsrin əvvəllərində formalaşmasına baxmayaraq müasir dövrümüzdə də öz əhəmiyyətini saxlamaqda davam edir. Müasir şərtlər daxilində dinc yanaşı yaşama prinsipləri keyfiyyətcə yeni xarakter almışdır. Kütləvi qırğın silahlarının geniş vüsət aldığı bir vaxtda dinc yanaşı yaşama prinsipləri, sosial-iqtisadi inkişafından, siyasi rejimindən, dini mənsubiyyətindən asılı olmayaraq bütün xalqlar üçün vacib əhəmiyyət kəsb edir. Tarixi proseslər göstərir ki, XX əsrdə baş vermiş müxtəlif səviyyəli

münaqişələr yalnız dövlətlərarası münasibətləri deyil, həmçinin sistemdaxili münasibətləri də əhatə etmişdir. Nüvə əsrində dinc yanaşı mövcud olma dövlətlər arası münasibətlərin ən ali universal prinsipi olmalıdır.

Beynəlxalq silahlı münaqişələrin dəf edilməsinin növbəti prinsipi dövlətlər və xalqlar arasında qarşılıqlı münasibətlərin tənzimlənməsində beynəlxalq təşkilatların rolunun əhəmiyyətli dərəcədə artırılmasını tələb edir. XX əsrdə Millətlər Liqası və BMT kimi nüfuzlu təşkilatların fəaliyyətə başlaması məhz qeyd etdiyimiz tələbdən irəli gəlmişdir. Lakin təəssüf ki, beynəlxalq münaqişələrin dəf olunması və onların qarşısının alınması, yəni, millətlərarası münasibətlərin tənzimlənməsi məqsədi ilə yaradılmış bu təşkilatların fəaliyyətləri heç də həmişə onların funksional təyinatları ilə uzlaşmırlar. Belə ki, Millətlər Liqası İkinci Dünya müharibəsinin qarşısını ala bilmədi, BMT də öz simvoliq rolunu ifa etməklə kifayətlənir. Son dövrlərin təcrübəsi bir daha sübut edir ki, BMT-nin fəaliyyəti kifayət qədər səmərəli deyildir. NATO tərəfindən keçmiş Yuqoslaviyaya hərbi güc tətbiq edildiyi zaman isə BMT tamamilə öz gücsüzlüyünü göstərdi. Bundan başqa, Azərbaycan Respublikasının ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi ilə bağlı BMT TŞ-nın qəbul etdiyi bütün qətnamələr günümüzədək qeyri-funksional kağız parçaları olaraq qalmaqdadır. Yaxud, BMT–nin TŞ-nın Amerika və Böyük Britaniya hərbi birləşmələrinin İraqa daxil olmasının qarşısını ala bilməməsi də artıq bu qurumun fəaliyyətinin simvolik xarakter daşımasından xəbər verir. Lakin bütün bunlara baxmayaraq, bu təşkilatların beynəlxalq sülhün qorunması istiqamətində bir sıra fəaliyyətlərini tamamilə inkar etmək də olmaz. Belə ki, BMT öz fəaliyyətində beynəlxalq münaqişələrin dəf olunması və tənzimlənməsi istiqamətində kompleks tədbirlərin reallaşdırılmasını nəzərdə tutmuşdur. Yəni, beynəlxalq təhlükəsizliyin təmin olunması məqsədi ilə aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyənləşdirilmişdir: (6,s.4)

1.münaqişəli vəziyyətin münaqişənin inkişafının ilkin mərhələsində müəyyən edilməsi;

2.münaqişənin baş verməsini şərtləndirəcək ziddiyyətlərin vaxtında aradan qaldırılması;

3.münaqişələrin baş verməsini şərtləndirən problemlərin aradan qaldırılması istiqamətində fəal sülhməramlı fəaliyyətin həyata keçirilməsi;

4.qütbləşmə baş vermiş cəmiyyətlərdə sülhün saxlanılması naminə kompleks tədbirlərin həyata keçirilməsi və vasitəçilərin köməyi ilə əldə olunmuş razılaşmanın şərtlərinə əməl olunmasına nəzarət və s.

İkinci Dünya müharibəsindən sonra, dövlətlərin hərbi-siyasi ittifaqlarda birləşmələri müəyyən səviyyədə siyasi münaqişələrin dəf olunması istiqamətindəki fəaliyyətin səmərəliliyini artırmışdır. Bu baxımdan, dövlətlərin ittifaqlarda birləşmələrini də siyasi münaqişələrin dəf edilməsinin bir prinsipi kimi təqdim etmək olar. Məsələn, ilkin regional hərbi–siyasi ittifaqlardan biri 1948-ci ildə yaradılmış Amerika Dövlətləri Təşkilatı olmuşdur. Bu təşkilat ABŞ hərbi dairələrinin iştirakı ilə Latın Amerikası ölkələrində yaradılmışdır. Təşkilatın yaradılmasının əsas məqsədi həmin ölkələrdə baş verə biləcək silahlı daxili–siyasi münaqişələrin qarşısının alınmasından ibarətdir. Bununla yanaşı bu təşkilatın yaranması ilə həmin ölkələr arasında baş verən münaqişələrin səviyyəsi minimuma endirilmişdir.(7)

### *ƏDƏBİYYAT*

1.Краснов Б.И. Политическая жизнь общества и ее демократические параметры // Социально-политический журнал. 1995. №4.

2.Скакунов Э.И. Методологические проблемы исследования политической стабильности//Международные исследования. 1992 (6) С. 5—42.

3.Ятманова, М. Г. Раннее предупреждение как инструмент предотвращения этнических конфликтов //Мировая политика и международные отношения. Выпуск 2. -СПб. : Изд-во СПбГУ, 2001. -С. 170 - 173
4.Bloomfield L. P., Leiss A. C. Controlling Small Wars: A Strategy for the 1970s N Y, 1969 App. C.
5.Brown J.A.C. Techniques of Persuasion. From Propaganda to Brainwashing– Harmondswonth, 1963. p. 28-31.
6.Restraints on War. Studies in the Limitation of Armed Conflict. Ed. by M. Howard. Oxford 1979. P. 4—6.
7.Organization of American States //www.oas.org

**ЭЛЬШАД МИРБАШИР О.**
***кандидат политических наук***

**ПОДАВЛЕНИЕ КАК ОДИН ИЗ ВАЖНЫХ СРЕДСТВ УПРАВЛЕНИЯ ПОЛИТИЧЕСКИМИ КОНФЛИКТАМИ**

В статье отмечается, что исследование проблем управления политических конфликтов имеет огромное значение в современной конфликтологии. Управление политическими конфликтами принципиально отличается от других форм воздействия на конфликты. Обосновывается также, что «подавление» является одним из надежных путей управления политических конфликтов. Автор рассматривает в статье важные моменты подавления конфликтов.

**ELSHAD MIRBASHIR O.**

**SUPPRESSION AS ONE OF THE IMPORTANT CONTROL FACILITIES POLITICAL CONFLICTS**

In article it is noticed that research of problems of management of political conflicts has huge value in modern conflictology. Management of political conflicts essentially differs from other forms of influence on conflicts. It is proved also that "suppression" is one of reliable ways of management of political conflicts. The author considers important points of suppression of conflicts in article.

***Rəyçilər: f.e.n.Z.Ə.Əhmədova, f.e.d.Z.Hacıyev.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 27 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10).***